# Maşallah MƏFTUN - 65

# ƏSGƏR GEYİMLİ KİTAB



**İslam SADIQ**

20 ildən çox Azərbaycan Milli Ordusunun geyimini böyük qürurla əynində gəzdirən şair dostum Maşallah Məftun onu soyunsa da, gözündən qırağa qoymayıb. Maşallah bu dəfə həmin paltarı təzəcə işıq üzü görmüş "Gəlimli-gedimli (güllləri açılan, güllələri saçılan) dünya" adlı şeirlər kitabına geyindirib. Bu kitabın təkcə çölü, üz qabığı Azərbaycan Milli Ordusunu xatırlatmır. Onun içindəki şeirlərin hərəsi bir Azərbaycan əsgəridir. Sonuncu cümləni elə-belə deməmdim. Onda böyük həqiqət var. Hələ orasını demirəm ki, Maşallah bu şeirlərdə igid, qorxmaz, mərd, qurd ağızlı, pələng pəncəli əsgər və zabitlərimizlə yanaşı, qorxaq, namərd, satqın, qanı qarışıq olanların da obrazlarını yaradıb. Başqa sözlə desək, bu şeirlərdə Qazan xanın, Beyrəyin, Basatın, Buğacın, Koroğlunun nəvələrinin yanında Yalançı oğlu Yalıncıqların, Keçəl Həmzələrin törəmələrini də görürük.

Maşallah Məftunun ürəyindəki Vətən sevgisi onu çəkib səngərlərə apardı. Şair yalnız qələmini süngüyə çevirmədi, özü silaha sarıldı, torpaqlarımızın düşmən tapdağından azad olunması, sərhədlərimizin bütövlüyünün bərpa edilməsi uğrunda döyüşlərə girdi. Onun bu kitabındakı şeirlərin də çoxu məhz səngərlərdə, yaxud sonradan səngər duyğularıyla düzülüb-qoşulub. Onun "Tankın işığında yazılan şeir"i doğrudan da 1994-cü ildə Qazaxda-səngərdə, lap elə tankın işığında yazılıb:

*Düşmən sərhəddində yuva qurubdu,*
*Qalalar bu yerin ulu daşları.*
*Yurdun keşiyində daim durubdu,*
*Əsgərə dönübdü vətəndaşları.*

*Zülmlə zülmətin kökünü kəsmək,*
*Bu yerdə əsgərin boyun borcudu.*
*Hiyləylə, kələklə fəqət uduzmaq*
*Oyun quranların oyun borcudu.*

Böyük Səməd Vurğun "Qarışsın Qazağa Dilcan dərəsi" deyəndə bizə xatırladırdı ki, Dilcan da, Göyçə də, Qaraqoyunlu da Azərbaycan torpaqlarıdı. Ona görə Qazağı sərhəd hesab etmək doğru deyil. Tarixdə heç vaxt Ermənistan adlı dövlət olmayıb, gələcəkdə də olmayacaq. İkinci bənddə şair çox şeyləri açıq deyib, bizə də düşünmək üçün yer saxlayıb.

Maşallah orduda komandir olub. Azərbaycan nazirlərinin və digər məmurların uşaqlarının orduda olmadıqlarını bizdən yaxşı bilir. Ona görə cəsarətlə yazır:

*Od içində yanır Qarabağ bu gün,*
*Orda bir nazirin sorağı yoxdu.*
*Hamısı hazırın nazırlarıdır,*
*Birinin sevgisi, marağı yoxdu.*

Əslində, oğru, quldur və satqınların milləti olmur. Bələlərinin övladlarından Azərbaycana nə oğul olar, nə də əsgər. Onların özləri kimi, uşaqları da bu Vətəni yox, onun sərvətlərini sevirlər. Vətəni sevmək kişilikdəndi, qeyrətdəndi, insanlıqdandı. Bu hisslər, bu duyğular məmurların özlərində varmı ki, uşaqlarında da olsun?! Onun "Oxuma "Qarabağ şikəstəsi"ni" şeiri büsbütün bu duyğularla yoğrulub və şairin yaşadığı hisslərdir, uydurma, qondarma deyil:

*Kimin günahıydı bilinən deyil,*
*Günah bir ləkədi bölünən deyil.*
*Bu ləkə tarixdən silinən deyil,*
*Oxuma "Qarabağ şikəstəsi"ni!*

Şeirin ilk mısralarında "Düşmən dərd üstə dərd toxuyur indi, İydələr bir həsrət qoxuyur indi" deyən şair dörd yox, altı tərəfini də yaxşı görür. Qarabağın taleyi göydə düyünlənmədi. Onu gözlərimizin qabağında düyünlədilər. Sapı özümüzdən olan baltalar düşmən dəyirmanına su tökə-tökə onu böyütdülər, şişirtdilər. Qarabağ od tutub yandı və onu sevənləri də yandırdı:

*Canımdan ayrılmaz candı Qarabağ,*
*Damarımdan axan qandı Qarabağ.*
*Yananlar bilərlər, yandı Qarabağ,*
*Oxuma "Qarabağ şikəstəsi"ni!*

*Atların yalını kəsən vaxtıdı,*
*Tellərdən güllələr asan vaxtıdı.*
*Qızların bulaqdan küsən vaxtıdı,*
*Oxuma "Qarabağ şikəstəsi"ni!*

Bu sətirlər şair yanğısıdı. Yanan Qarabağın bir çınqı közü də onun qəlbinə düşüb. Maşallah yandığından deyir ki, "Oxuma "Qarabağ şikəstəsi"ni"! Axı bunu deyən Maşallahın oxuduğum kitabındakı şeirlərin çoxu elə "Qarabağ şikəstəsi" üstündə köklənmiş bir qəlbin hayqırtılarıdır.

Atların yalını kəsmək olmaz. Bu işdə atların taqsırı yoxdu. Taqsırkarların dillərini kəsmək, düşmənləri yarandığına peşman eləmək üçün bizə yalı kəsilməmiş atlar lazım olacaq. Bulaqları qızlarla barışdırmaq bizim boynumuzun borcudur. O gün də çox uzaqda deyil.

Aruz Qazan xana ası çıxdı. Beyrəyi namərdliklə öldürdü. Görəsən Qazan xan doğma dayısı Aruzun boynunu vurmasaydı, Oğuzun sonu nə olacaqdı?! Aruz açıq düşməniydi. Bu gün içimizdə o qədər açıq və gizli Aruzlar var ki! Onların boyunları vurulmasa, Oğuzun sonunu gözləyən bizi də gözləyir.

Maşallah Məftun düşməni yaxşı tanıyır. Onunla həyatda da, səngərdə də çox üz-üzə gəlib. Azərbaycanın necə parçalandığını da unutmur:

*Ulu Dərbənd ulusum,*
*ürəkdə şah damarım,*
*Ulu Təbriz ulusum,*
*ürəkdə qan damarım,*
*Ulu Göyçə ulusum,*
*Canımda can damarım.*

Bunun ardınca da torpağımıza göz dikən yağılara tarixi xatırladır və onları dünəni unutmamağa, sabahı göz altına almağa çağırır:

*Kim oldu haqsız qalar,*
*Canıtək haqsız qalar.*
*Bu yurda göz dikənlər*
*Yenə qulaqsız qalar.*

Axı bizim babalarımız deyiblər ki:

*Əzizim Ordubada,*
*Yol gedir Ordubada.*
*Sərkərdə igid olsa,*
*Heç verməz ordu bada.*

Keçəl Həmzə Qıratı minə bilər, ancaq ondan Koroğlu olmaz. Yalançı oğlu Yalıncıq Beyrəyin yay-oxunu götürə bilər, ancaq atammaz. Təpəgözü öldürmək üçün Oğuzun içindən Basat çıxdığı kimi, erməniləri torpaqlarımızdan qovacaq sərkərdəni də bu xalq yetişdirəcək. Yüz il bundan qabaq daşnak Andranikin qulağını kəsən türkün minlərlə nəvələri var ki, bu gün-sabah ağıllanmayıb onun torpaqlarına göz dikənlərin qulaqlarını kəsəcəklər.



Maşallah Məftun gözüaçıq insandı, həssas şairdi. Çevrəsində baş verən heç bir şey onun gözündən yayınmır. Həyatın ağ üzünü də görüb, qara üzünü də. Onun sevinən gözünü də görüb, ağlayan gözünü də. Şirin sözünü də eşidib, acı sözünü də. "Xalılar altında quyular olduğunu" da yaxşı bilir. Çox zaman xalını adamın ayaqları altına xoş niyyətlə sərmirlər. Çoxlarının canına hopmuş susmaq xəstəliyinin qorxudan törəndiyini də hissləri ona pıçıldayır:

*Hanı bizim qılıncdan iti ağzımız,*
*görən kimin əllərində boğazımız?!*
*Danışmırıq,*
*Susuruq biz,*
*Gələr-gəlməz zamanını pusuruq biz!*
*Allahını tanımayan,*
*atasını tanımayan,*
*Fərman verir bizim haxda,*
*görən necə hakim olub iblis taxta?!*

Bunlar poetik suallardır. Onların cavablarını şair yaxşı bilir. Ancaq onları özü açmır ki, yuxudakılar gözlərini açıb oyansınlar, ayıqlar da bir azca öz hallarını düşünsünlər. Şair öz sözünü deyir, yaxşı da deyir, qalanı qalır oxucunun boynunda. Yuxarıdakı sətirlərin altından "igid bir dəfə ölər, qorxaq min dəfə", "susmaq qızıl deyilmiş", "zalımın zülmüylə barışan xalqı Tanrı da bağışlamaz", "Tanrı deyir: sənə göz vermişəm görmək üçün, dil vermişəm danışmaq üçün, ağıl vermişəm düşünmək üçün" kimi neçə-neçə gerçəkliklər boylanır. Gör görülməsini, eşit eşidilməsini, danış danışılmasını, düşün düşünülməsini!

Ağla qara, acıyla şirin, pislə yaxşı kimi, sədaqətlə xəyanətin, gerçəklə yalanın, əyriylə düzün, mərdlə namərdin, qeyrətliylə qeyrətsizin, satqınla satqın olmayanın, qorxaqla qorxmazın bir dünyanın, bir ölkənin, bir şəhərin çatısı altında qoşa yaşadığını görür, duyur və onların heç birinə səssiz qalmır Maşallah Məftun:

*Hanı bizim öz eşqimiz, öz gücümüz,*
*Hanı bizim öz səsimiz, öz ünümüz?*
*Bəzən olur*
*yad boğazda oxuyuruq,*
*Bəzən olur*
*yad xalılar toxuyuruq.*

Və yaxud görün qorxub susanları necə gözəl qınayır şair:

*Qırmızı imperiyanın xofu,*
*İti nizəsi, oxu,*
*Ayaq tutanların çoxu*
*Yaratmışdı susmaq xəstəliyini.*
*Əfsus bu xəstəliyə*
*İndi də tutulan çox,*
*Qurtulansa yox...*

Maşallah Məftun duyğu, düşüncə şairidi. Harda olursa, nə görürsə onun haqqında düşünür. Bakını gəzə-gəzə birdən özünü bu doğma şəhərdə yad kimi hiss eləyir. Gördükləri, eşitdikləri, duyduqları onu dəhşətə gətirir. Qəfildən ağlına gəlir ki:

*Neftimin ətrini gül tək qoxuyur,*
*Plovdan, əmlikdən yeyir, oxuyur,*
*Sonra başımıza corab toxuyur,*
*Yox... Yox...*
*Sən demə bu şəhər bizim deyilmiş.*

Adamın başına öz doğma şəhərində heç kim corab toxuya bilməz. Əgər toxuya bilirlərsə, deməli, o şəhər doğrudan da sənin deyil. "Bp" şirkətinin işçisi olan bir ingilis Bakıda bayrağımızı tapdalaya bilirdisə, şairin sözləri həqiqətdir.

Dünyamız yanır. Çox yerlər od içindədi. Qarabağ da, həmçinin. Həm özü yanır, həm bizi yandırır. Mən də bir zaman yazmışdım ki, "Dünyanın dörddə üçü sudu, Dörddə biri yanır ancaq". Onda hələ Qarabağ yanmırdı. Maşallahın yanğınlar haqqındakı şeiri çox yığcam, tutumlu, düşündürücüdür və deyimin onun özünə məxsusluğu da göz qabağındadır:

*Elə ki, bürüyür aləmi*
*alovların köpü,*
*Səni günahkar bilirlər,*
*kibrit çöpü.*
*Yanıb külə dönüb ürəyi*
*neçə dostun, yadın.*
*Nə yaxşı bu yanğınlarda*
*çəkilmir adın?!*

Bütün yanğınların taqsırını kibrit çöpünün boynuna yıxırlar, halbuki onların çoxundan kibrit çöpünün xəbəri də yoxdu. Burada kibrit çöpü öz sözünü demək üçün şairin əlinə düşmüş fürsətdir. Hər gün taqsırsızın qollarına qandal vururlar, taqsırlının başı sığallanır. "Öldürəcəm" deyəni tuturlar, öldürəni yox. Bu şeir yaşadığımız həyatda hər gün üzləşdiyimiz, yaxud elə gözlərimizin qabağında baş verən haqsızlıqlara bir şair qəlbinin etirazıdır. Hər gün neçə-neçə insanın bağrı yanır, onun da taqsırının kibrit çöpünün boynuna qoyulmamağı şairi çox təəccübləndirir...

Maşallah Məftun peşəkar hərbçidi. O, yaxşı bilir ki, döyüşdə hədəfi seçəndə və tuşlayanda yanılmaq olmaz. Tətiyi çəkməyə isə sənə yalnız bir dəfə fürsət verilir. Birinci tətikdə düşməni vura bilməsən, o səni vuracaq.

Belə bir söhbət eşitmişəm. Bir komandir əsgərdən soruşur:

*(Davamı 7-ci səhifədə)*

10 mart 2021-ci il

# ƏSGƏR GEYİMLİ KİTAB

*(Əvvəli 2-ci səhifədə)*

-Düşməni neçənci gülləyə vuracaqsan.

Əsgər bir qədər duruxub deyir:

-Uzağı üçüncü gülləyə.

Komandir deyir:

-Üçüncü gülləyə vura bilməzsən, çünki birinci gülləyə vurmasan, düşmən səni vuracaq, axı özün də hədəfsən.

Maşallah Məftun şeir yazanda da bu həqiqəti unutmur. O söz döyüşündə də hədəfi düz seçir, dəqiq tuşlayır və tətiyi də bircə dəfə çəkir. Baxın:

*Nə qədər biz palan olaq,*
*Nə qədər biz yalan olaq?!*
*Keçmişdən hesab alaq,*
*Gələcəyə hesab soraq...*
*Son tikənin hesabını sormasaq biz,*




*Bu köləlik zəncirini qırmasaq biz...*

Və yaxud:

*Bu yurdun qazisi, zəlisi kimdi,*
*Sağ ikən can verən ölüsü kimdi?!*

Və yaxud:

*Vətəni sevməsin qızıldan yükü.*

Bu şeirləri açmağa, açıqlamağa ona görə ehtiyac yoxdur ki, sözün hədəfi bəllidir, görünür, tuşlanıb və tətik də çəkilib... Şeir ağıllı, duyumlu oxucu üçündü.

Maşallah Məftunun bu kitabında çoxlu ithaf şeirləri var. Ancaq onların çoxunu ithaf şeiri adlandırmaq olmur. Şair kimlərinsə canlı portretini yaradır və ona özünün istədiyi boyaları vurub ürəyindən keçənləri oxucusuna bu yolla çatdırır:

*Dünyanın ortasıyla*
*Yavaş-yavaş yol gedirdi*
*Pencəyi qolu üstə.*
*Hardansa gəlib çıxdı*
*İblislər yolu üstə.*

Bu sətirləri oxuyanda istər-istəməz gözlərimizin önündə Hüseyn Cavidin obrazı canlanır. Burada şeirin Hüseyn Cavidə həsr olunduğunu yazmağa belə ehtiyac qalmır.

Maşallah hərdən gözəl, yaddaqalan kənd mənzərələri yaradır. Bu mənzərələr ona görə canlı və gözəl alınır ki, onlar şairin uşaqlıq yaddaşından üzü bəri cilalana-cilalana gəlir və bir gün də süzülüb şeirin sətirlərinə hopur:

*Lampa işığında toylar olardı,*
*Seyid Zeynal*
*dişində lampa oynardı.*
*Şülünü, Muradı, Heydəri, Xıdırı*
*Ortaya çəkərdi hey qıylardı.*
*Nəcəfin qara zurnası*
*dərəni, təpəni, dağları*
*yerindən oynadardı.*
*Nə o palçıq daxmamız*
*yerindədi,*
*Nə həmin evlər yerindədi...*

Bu sətirlər bizim xəyalımızı, fikrimizi çəkib xeyli uzaqlara-uşaqlıq illərimizə aparır. O cür kənd toylarını hər birimiz görmüşük. Ona görə şeir bizim ürəyimizə yatır, ruhumuzu əvvəlcə yerindən oynadır, sonra da sığallaya-sığallaya, oxşaya-oxşaya ovundurur onu.

Bir-iki kəlmə də Maşallah Məftunun kitabındakı sevgi şeirləri haqqında demək istəyirəm. Həyatdakı bütün sevgilər bir-birinə oxşayır, həm də qətiyyən oxşamır. Oxşarlığı yaradan odur ki, onların hamısı sevgidir. Bənzərsizliyi yaradan isə odur ki, hər kəsin öz sevgisi var, hər kəs yalnız özü kimi sevir. Eyni sözləri Maşallahın sevgi şeirləri haqqında da söyləmək olar. Onun şeirləri öz nəfəsilə yoğrulub, öz ürəyindən su içib:

*Sən məndən üz döndərsən,*
*Tanrı da səndən üz döndərər.*
*Mən sənin-*
*Tanrının qəzəbinə*
*gəlməyindən qorxuram...*

Maşallah bu şeirdə sevdiyi gözələ deyir ki, səni mənim qarşıma Tanrı çıxardıb. Səni Tanrı mənə yazıb. Bu sevgi ikimizin də alın yazımızdır. Bu sözlər şeirdə yoxdur, ancaq onun sətirlərinin altından boylanır. Şeirin gözəlliyi də elə bundadır. Məhz ona görə Maşallah deyir ki, əgər "sən məndən üz döndərsən, Tanrı da səndən üz döndərər və Tanrının qəzəbinə tuş gələrsən". Fikir verin, şairi qızın ondan üz döndərməyi və sonrakı ayrılıq, həsrət qorxutmur, yalnız bu hərəkətinə görə qızın Tanrının qəzəbinə gəlməyi qorxudur. Əsl sevgi bax budur. Şair sevdiyinə qovuşmasa belə, onun ayağına daş dəyməyinə razı olmur.

Çoxlarına elə gələ bilər ki, Maşallah Məftunun bu kitabında sevgi şeirləri azdı. Yox, bu yalnız ilk baxışda belədir. Onun Vətən, yurd, torpaq, millət haqqındakı şeirlərinin, döyüş nəğmələrinin hamısı sevgiylə yoğrulub. Vətən, yurd, millət sevgisiylə! Bütün sevgilərin başında Vətən və millət sevgisi durur!

***14 fevral 2021***
***Novxanı***

